# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 47 (1447), 27 dekabr 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.


Azərbaycan Respublikasının idman mütəxəssislərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

**S ə r ə n c a m ı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Culfayev Alavərdi Abasoviç

Eminbəyli Yavuz İbrahimoviç

Hacıyev Ramiz Məmməd Kərim oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2019-cu il.***

Azərbaycan Respublikasında idmanın inkişafında xidmətləri olan bir qrup şəxsə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

**S ə r ə n c a m ı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar bədən tərbiyəsi və idman xadimi"**

Ağayev Böyükağa Məmməd oğlu
Ələkbərov İqdam Əli oğlu
Əliyev Paşa İbrahim oğlu
Heydərov Tofiq Mirhəsən oğlu
Həsənov Azər Camal oğlu
Həsənov Tərlan Əliheydər oğlu
Mustafayev Şahlar Gülməhəmməd oğlu
Sultanova Sara Oqtay qızı

**"Əməkdar həkim"**

Əliyev Natiq Avil oğlu
Hüseynova Emiliya Əşrəf qızı

**"Əməkdar jurnalist"**

Cavadov Rəşad Qəmərşah oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2019-cu il.***

# Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib




Dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

Prezident İlham Əliyevin nitqi

- Əziz idmançılar, əziz dostlar.

Biz hər ilin sonunda idman nailiyyətlərinə yekun vururuq, idmançıları, idman mütəxəssislərini, veteranları mükafatlandırırıq. Bu il də istisna deyil. İlin sonunda bir daha görüşürük, eyni zamanda, gələcək planlar haqqında danışırıq, fikirlərimizi bölüşürük və beləliklə, Azərbaycanda idmanın inkişafı dayanıqlı xarakter alır.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev Dünya Etnoidman Konfederasiyasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.

Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından və öz adından dövlətimizin başçısını ad günü münasibətilə təbrik etdi, ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.

Təbrikə və göstərilən diqqətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefonla danışdığını məmnunluqla qeyd etdi.

Söhbət zamanı Çövkən Milli Atüstü Oyunu üzrə Prezident Kubokunun final mərhələsinin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, milli idman oyunlarının inkişaf etdirilməsi istiqamətində ölkələrimizin əməkdaşlığının önəmi vurğulandı.



## Anons


*Ağırlıqqaldıranımız Qətərdə fərqləndi* Səh. 4

Azərbaycan Türkiyədə keçiriləcək V İslam Həmrəyliyi Oyunlarının təqdimatında təmsil olunub Səh. 4

Azərbaycan Gimnastika Federasiyası üçün daha bir uğurlarla zəngin il geridə qalır
AGF AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI Səh. 5

Azərbaycan Voleybol Federasiyası ilə Avropa Voleybol Konfederasiyası arasında müqavilə imzalanıb Səh. 6

*İddiaçılar turniri 2020: yekun siyahı* Səh. 6

Bakı çempionatında qaliblər müəyyənləşdi Səh. 6

*Futbolun estetik tərəfi* Səh. 7

# Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib





(əvvəli 1-ci səhifədə)

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər.

Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır, biz bunu görürük, izləyirik. Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq. Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan bu il də əlamətdar il olmuşdur. Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu, onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar.

İdman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd etmək istərdim. Çünki bu, onu göstərir ki, bizim gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. On altı yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi olmuşdur. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm. Əfsuslar olsun ki, 1980-ci illərin sonlarında və 1990-cı illərin əvvəllərində bir çox şahmat məktəblərimizin təyinatı dəyişdirilmiş, o binalar özəlləşdirilmiş, orada ticarət obyektləri açılmışdır. Əlbəttə ki, bu, ovaxtkı rəhbərlik tərəfindən bizim intellektual potensialımıza vurulmuş böyük zərbə idi.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra şahmat məktəblərinin yenidən açılması prosesi başlamışdır və son illərdə bu proses geniş vüsət almışdır. Mənim göstərişimlə rayonlarda yaradılmış gözəl şahmat məktəbləri fəaliyyət göstərir və beləliklə, gənc şahmatçılar yetişir.

Əlbəttə, şahmat çox məşhur, populyar idman növüdür, o idman növüdür ki, insanların, uşaqların intellektual potensialını gücləndirir. Məhz mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər bizim gələcəyimizi, müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər. Ona görə gənclər fiziki cəhətdən güclü olmalıdırlar. Onların intellektual potensialı yüksək səviyyədə olmalıdır. Onlar milli dəyərlərə, Vətənə bağlı olmalıdırlar. İdman vətənpərvərlik hisslərini böyük dərəcədə artırır. Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Ona görə idmanın hər bir ölkənin həyatında çox önəmli rolu var. Məhz buna görə son illər ərzində idmana çox böyük diqqət göstərilir. Mən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti kimi 1997-ci ildə bu vəzifəyə ilk dəfə seçiləndən sonra Azərbaycanda idmanın inkişafı, idmanda kütləviliyin təmin edilməsi istiqamətində addımlar atmışam və bu addımlar bu gün özünü göstərir.

Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. Bizim idman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya Oyunlarında qazanılmış qələbədir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və bu, təsadüfi qələbə deyil. Çünki ondan bir il əvvəl - 2015-ci ildə Bakıda keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında ikinci yerə qalxmışdır. Ona görə idman sahəsində qazandığımız uğurlar təsadüfi xarakter daşımır. Konseptual şəkildə ardıcıl işlər görülür, veteran idmançılara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıb. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıb. Hazırda bizim ancaq bölgələrdə 45 Olimpiya İdman Mərkəzimiz var. Bu il bir mərkəz Beyləqan şəhərində mənim iştirakımla açılıbdır. İki Olimpiya İdman Mərkəzi açılışa hazırdır - Yardımlı və Tərtər rayonlarında. İki Olimpiya Mərkəzinin tikintisi davam etdirilir - Goranboy və Neftçala şəhərlərində. Yevlax şəhərində Olimpiya Mərkəzinin layihələndirmə işləri başa çatıb və əminəm ki, yaxın zamanlarda onun inşası başlanacaq. Beləliklə, biz demək olar ki, hər bir rayonda müasir idman kompleksi istifadəyə verərək idmançılar üçün şərait yaratdıq. Bu, həm gənc idmançıların idman bölmələrində hazırlıq keçmələri, həm də şəhər və rayon sakinləri üçün gözəl imkandır.

Mən tövsiyə edərdim ki, hər bir vətəndaş idmanla məşğul olsun. Özü də həftədə, ayda bir dəfə yox, müntəzəm olaraq. Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir. Mən ümid edirəm ki, biz buna nail olacağıq. Çünki başqa sahələrdə mənim tövsiyələrim artıq həyatda öz əksini tapır. Bəlkə də indi siz yaxşı xatırlayırsınız ki, rayon mərkəzlərində və kəndlərdə yeni xəstəxanaların, tibb ocaqlarının açılışı zamanı mən dəfələrlə eyni məsələyə qayıdıb tövsiyə edirdim ki, hər bir vətəndaş ildə bir dəfə tibbi müayinədən keçsin və bilsin, onun sağlamlığı, səhhəti nə yerdədir. Əgər hər hansı bir xəstəliyin ilkin təzahürləri varsa, dərhal müalicə alsın və sağalsın. Bütün şəhərlərdə, rayonlarda müasir, özü də ən yüksək dünya standartlarına cavab verən tibb mərkəzlərimiz yaradılandan sonra artıq bu prosesə daha çox meyil göstərilir. Ondan sonra biz bunu mütəşəkkil qaydada icra etməyə başladıq. Artıq bir neçə ildir ki, böyük maarifləndirmə və təbliğat işləri apararaq vətəndaşların pulsuz müayinədən keçmələri üçün imkanlar yaratdıq. Bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçibdir. Orada müayinədən keçən vətəndaşların əgər hər hansı bir xəstəliyi olarsa, dərhal müalicə edilir. Əgər rayon şəraitində buna imkan yoxdursa, Bakıya göndərilir və beləliklə, insanlar öz səhhətini qoruyurlar. Biz buna nail olmuşuq və deyə bilərəm ki, Azərbaycan bəlkə də dünyada dövlət tərəfindən bütün vətəndaşlara tibbi müayinədən keçmək şəraitinin yaradıldığı nadir ölkələrdən biridir. Əminəm ki, mənim hər bir insanın fiziki imkanlarına uyğun olaraq idmanla məşğul olması barədə tövsiyəm də həyatda öz əksini tapacaq. Onda hər bir insan görəcək ki, bunun nə qədər böyük faydası var.

Bizim idman şöhrətimizi yüksəklərə qaldıran görkəmli idmançılarımıza da tövsiyə edirəm ki, onlar da bu maarifləndirmə işlərində fəal iştirak etsinlər. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, idman cəmiyyətləri, klublar idmanın kütləviliyini təmin etsinlər. Bilirsiniz ki, çoxdandır mənim təşəbbüsümlə biz ictimai istirahət zonaları yaradırıq. Artıq parklar, bağlar şəhəri olan Bakı bu baxımdan dünyada qabaqcıl yerlərdədir. Baxın, son vaxtlar Bakı şəhərində nə qədər ictimai istirahət zonaları yaradılıb. Sovet vaxtından qalan bütün ənənəvi parklar ən yüksək səviyyədə yenidən quruldu. Vaxtilə dağılmış, guya fəaliyyət göstərən, əslində, ekologiyamıza ziyan vuran sənaye müəssisələrinin yerində bir çox yeni parklar salındı. Sonra mənim göstərişimlə bu ictimai parklarda açıq havada idman qurğuları quraşdırılmağa başlanmışdır. İndi "Abad həyət" proqramı icra edilir. Artıq Bakı şəhərində onlarla həyət abadlaşdırılıb. Orada idman meydançaları, o cümlədən trenajorlar quraşdırılıb. İndi hər bir insanın açıq havada idmanla məşğul olması üçün imkanlar var. Uşaqlar, böyüklər orada futbol, başqa oyunlar oynayırlar, trenajorlarda məşq edirlər. Bu, kütləvi xarakter almalıdır. O halda millətimiz sağlam olacaq.

Ona görə görkəmli idmançılara müraciət edərək onları bu işə dəvət edirəm. Bizim mətbuat orqanları gərək bu sahədəki fəaliyyətini gücləndirsinlər. Düzdür, bizim bəzi televiziya kanallarında aerobika, başqa fiziki fəallıqla bağlı verilişlər var. Bu verilişlərdə vətəndaşlara göstərilir ki, idmanın hansı növünü, hansı hərəkətləri ev şəraitində edə bilər. Amma hesab edirəm ki, bu, kifayət deyil. İdman kütləvi xarakter almalıdır, ona görə yox ki, biz daha çox medallar qazanmaq əzmindəyik, - halbuki bu da vacibdir, - ona görə ki, bizim millətimiz sağlam olsun, xəstələnməsin. İdmanla məşğul olan insanlar, buradakı idmançılar bunu öz həyatlarında görürlər. Baxmayaraq ki, iş qrafikim çox gərgindir, mən idmanla müntəzəm, fasiləsiz məşğul oluram. Bəlkə Azərbaycanda məndən çox işləyən adam yoxdur, ancaq buna baxmayaraq, vaxt tapıb idmanla müntəzəm məşğul oluram və bunun xeyrini görürəm. Ona görə mənim tövsiyəm budur. Əminəm ki, yaxın gələcəkdə mənim bu tövsiyələrim əsasında konkret təkliflər olacaqdır, idman kütləviliyi ilə bağlı geniş proqram tutulacaqdır.



(ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib



*(əvvəli 2-ci səhifədə)*

İndi bizim böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kənd yerində bu, yoxdur. Düzdür, bəzi kəndlər şəhərlərə yaxın yerləşir və orada yaşayan uşaqlar, yeniyetmələr idman komplekslərinə gedə bilirlər. Ancaq bəzi ucqar kəndlər var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməlidir, buna diqqət verilməlidir. Ucqar kəndlərdə yaşayan uşaqlar bəzi hallarda bilmirlər nə ilə məşğul olsunlar. Orada o bölgəyə uyğun olan formada idman qurğuları tikilməlidir, yarışlar keçirilməlidir, rayon yarışları. Nə üçün bizdə rayon yarışları keçirilmir? Hesab edirəm ki, bu, böyük boşluqdur, böyük qüsurdur. Rayon idman yarışları keçirilsin. Bu, həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər. Ona görə idmanla məşğul olan bütün qurumlara mənim tapşırığım bundan ibarətdir.

O ki qaldı, gələcək fəaliyyətimizə, Azərbaycanda bundan sonra da beynəlxalq idman yarışları keçiriləcək. Bu baxımdan bu il əlamətdar il olmuşdur. Bir neçə dünya, Avropa çempionatı keçirilmişdir, gimnastika üzrə, digər idman növləri üzrə. O cümlədən Avropa Gənclər Olimpiya Festivalı keçirilmişdir. Bakı şəhərinə Avropanın bütün ölkələrindən yeniyetmələr, gənclər gəlmişlər. Bildirməliyəm ki, bizim gənclərimiz də yaxşı nəticə göstərmişlər, komanda hesabında 4-cü yerə layiq görülmüşlər. Bu il Bakıda daha bir əlamətdar idman yarışı keçirilib. Futbol üzrə Avropa Liqasının final oyunu ilk dəfə olaraq Azərbaycanda, Bakı Olimpiya Stadionunda keçirilibdir. Bütün təşkilati məsələlər ən yüksək səviyyədə öz həllini tapıb, bunu da mən xüsusilə qeyd etmək istəyirəm. Çünki minlərlə xarici tamaşaçı, xarici qonaq gəlmişdir. Minlərlə qonağın bir gün, iki gün ərzində gəlməsi əlbəttə ki, bizim üçün müəyyən problemlər yarada bilərdi, ictimai nəqliyyatla, təhlükəsizliklə bağlı. Həmçinin hava limanında təyyarələrin, o cümlədən çarter təyyarələrin enişi ilə bağlı müəyyən problemlər ola bilərdi. Ancaq bütün müvafiq qurumlar, Təşkilat Komitəsi çox səmərəli işləyiblər. Ümumi rəyə əsasən, təşkilati məsələlərə görə Bakı Avroliqa final yarışı nümunə kimi göstərilir. Mən indi başqa şəhərlərdə buna oxşar yarışların keçirilməsi ilə bağlı bir söz demək istəmirəm, ancaq bizə gələn məlumata görə, hətta Çempionlar Liqasının final oyunları bəzi şəhərlərdə bu səviyyədə keçirilmir. Bizdə olan nizam-intizam, qayda-qanun, təşkilati məsələlər, könüllülərin fəaliyyəti, bütün aidiyyəti qurumların birgə fəaliyyəti bunu təmin edibdir.



Gələn il bizdə yenə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulur. Onların arasında bir nömrəli yarış futbol üzrə Avropa çempionatının dörd oyunudur, onlardan biri dörddəbir finaldır. Artıq tarixlər də bəllidir, hazırlıq işləri də aparılıb, xaricdən gələn çox böyük tamaşaçı auditoriyası olacaq. Əminəm ki, bu yarış da ən yüksək səviyyədə keçiriləcək və Azərbaycan öz imkanlarını, o cümlədən təşkilatçılıq qabiliyyətini bir daha göstərəcəkdir.

Ənənəvi olaraq Formula 1 yarışı keçiriləcəkdir. Futbol üzrə Avropa çempionatının oyunları ilə Formula 1 yarışı üst-üstə düşür. Ona görə təşkilati məsələlərlə məşğul olan bütün qurumların üzərinə əlavə məsuliyyət düşür. Gərək bütün bu işləri elə planlaşdıraq ki, bu iki önəmli tədbir bir-birinə maneçilik törətməsin. Ona görə indidən bütün işlər düzgün qurulmalıdır.

Formula 1 yarışına gəldikdə, deyə bilərəm ki, bu yarışın ölkəmiz üçün çox böyük faydası var. Birincisi, Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o, ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. Formula 1 yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci Formula 1-dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il, artıq on bir ayda 11 faiz artmışdır. Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir. Mən tapşırıq vermişəm, aidiyyəti qurumlar hesablayırlar ki, bu turistlər nə qədər pul xərcləyiblər. Əlbəttə ki, biz bunu həm ödəmə kartları vasitəsilə dəqiq biləcəyik, eyni zamanda, ehtimal olunan pul sərfiyatını da, - bunun da hesablama metodologiyası var, - hər halda bu, milyardlarla manat səviyyəsindədir. Budur, turistlərin gəlişinin ölkə iqtisadiyyatına verdiyi töhfə.

İş yerlərinin yaradılması, xidmət və nəqliyyat sektorlarının inkişafı - bütün bunlar turizmlə bağlıdır. İndi ən inkişaf etmiş ölkələr, hansıların ki, böyük sənaye, kənd təsərrüfatı potensialı var, onlar da hər turist uğrunda mübarizə aparırlar. İnkişaf etmiş ölkələrdə, xüsusilə mənzərəli yerləri çox olan ölkələrdə turistlərin sayı on milyonlarla ölçülür və bundan çox böyük fayda görürlər. Bəzi ölkələrin turizm sektoru aparıcı iqtisadi sektordur. Əlbəttə, bizdə elə deyil. Ancaq bu sektorun inkişafı üçün Formula 1 yarışının xüsusi əhəmiyyəti vardır.

Əlbəttə, Yay Olimpiya Oyunlarına az vaxt qalıb. Hazırlıq son mərhələdədir. Əminəm ki, Azərbaycan idmançıları Tokio Olimpiya Oyunlarında Vətənimizi ləyaqətlə təmsil edəcəklər və bizim bayrağımız qaldırılacaq, himnimiz səslənəcək.

Mən bir daha bütün idmançıları, yüksək nəticələr qazanmış idmançıların nailiyyətləri münasibətilə təbrik edirəm. Azərbaycanın bütün idman ictimaiyyətinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.



x x x

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Dövlətimizin başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Alavərdi Culfayevə, Yavuz Eminbəyliyə və Ramiz Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədləri təqdim etdi.

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Paşa Əliyev, Tərlan Həsənov, Şahlar Mustafayev, Azər Həsənov, İqdam Ələkbərov, Tofiq Heydərov və Böyükağa Ağayev Əməkdar bədən tərbiyəsi və idman xadimi, idman səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Natiq Əliyev və Emiliya Hüseynovaya Əməkdar həkim, Rəşad Cavadova isə Əməkdar jurnalist fəxri adlarının vəsiqələri təqdim olundu.

Tədbirdə Pərviz Tağıyev, Ramiz Quliyev, Nazim Səmədov, Orxan Qəribov, Yalçın Qaralı, Şahin Mahmudov, Nadir Əzizov və Ramil Əhmədov Milli Olimpiya Komitəsi Prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə - Salman Əlizadə, Bəhram Mürvətov, Qərib Əliyev, Rəşad Məmmədov, Ramiz Ramizzadə, Bəhruz Salehli, Səbinə Məmmədova, Elxan Süleymanov,



Səid Quliyev, Əbülfəz Məmmədov, Rəşad Əbdürrəhmanov, Vladislav Qədirov, Anar Allahverdiyev, Xanım Balacayeva, Kərim Sərdarov, Emil Həsənov, Kamil Qafarov, Ceyhun Hüseynov, Asiman Qurbanlı, Cabbar Mustafayev, Faiq Quliyev, Şahbandlu Rəcəbzadə və Səməd Qurbanova yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edərək dedi: Sizin fəaliyyətiniz və Birinci vitse-prezidentin fəaliyyəti respublikanın inkişafı ilə bağlıdır. Bundan qiymətli heç nə ola bilməz!



## Azərbaycan Türkiyədə keçiriləcək V İslam Həmrəyliyi Oyunlarının təqdimatında təmsil olunub

Türkiyədə Konyanın V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi ilə əlaqədar təntənəli imzalanma mərasimi keçirilib.

Mərasimdə Türkiyənin İdman və Gənclər naziri, ölkənin Olimpiya Komitəsinin prezidenti, Konya şəhər bələdiyyəsinin rəhbəri, idman federasiyalarının prezidentləri və diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Azərbaycanı tədbirdə İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsinin yeganə xanım üzvü, qurumun İdmanda Gender Bərabərliyi komitəsinin rəhbəri Könül Nurullayeva təmsil edib. Tədbir zamanı V İslam Həmrəyliyi Oyunlarının loqo təqdimatı keçirilib.

Könül Nurullayeva Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təşkilati prosesində Azərbaycanın tətbiq etdiyi modellərdən danışıb, uğurun əsasını təşkil edən könüllülük fəaliyyətindən bəhs edib.

## Ağırlıqqaldıranımız Qətərdə fərqləndi

Azərbaycan ağırlıqqaldıranı Boyanka Kostova VI Qətər Beynəlxalq Kubokunun qalibi olub. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışda 59 kiloqram çəki dərəcəsində mübarizə aparan yığmamızın üzvü ümumilikdə 221 kiloqram (101+120) nəticə ilə bütün rəqiblərini qabaqlayıb.



Qeyd edək ki, yarışda Nailxan Nəbiyev (96 kq) və Əliş Nəzərov (109 kq) da iştirak edib.

***Azərbaycan Qılıncoynatma Federasiyasında ilin yekunları ilə bağlı ümumi yığıncaq keçirilib.***

İclasda Azərbaycan Qılıncoynatma Federasiyasının vitse-prezidenti Fikrət Zeynalov, baş katib Vasif Məmmədov, İcraiyyə Komitəsinin üzvləri, Azərbaycan Qılıncoynatma ailəsinin nümayəndələri iştirak ediblər.

Baş katib öz növbəsində il ərzində qılıncoynadanlara dəstəyini əsirgəməyən Azərbaycan Gənclər və İdman Nazirliyinə təşəkkür edib.

## Azərbaycan Qılıncoynatma Federasiyasında ilin yekunları ilə bağlı ümumi yığıncaq keçirilib



Cari ili qılıncoynadanlarımız üçün uğurlu hesab edən Vasif Məmmədov buna misal olaraq Anna Baştanın 23 yaşadək qadın sablyaçılar arasında Avropa çempionluğunu, Ruslan Həsənovun yeniyetmə və gənclərin dünya birinciyində bürünc medal qazanmasını göstərib. Yerli məşqçilərlə yanaşı, beynəlxalq təcrübəyə malik mütəxəssislərin əməkdaşlığa cəlb olunduğunu deyən baş katib, il ərzində yeni qılıncoynatma zallarının istifadəyə verildiyini, idmançıların yeni geyim ləvazimatları ilə təmin olunduğunu bildirib.

İki il ərzində böyük işlər görüldüyünü bildirən vitse-prezident Fikrət Zeynalov isə "Neftçi" İdman Klubu tərəfindən yeni qılıncoynatma zalının inşasına başlandığını qeyd edib.

İnteraktiv şəkildə keçirilən iclasda məşqçilərlə müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Gələcək üçün hədəflər müəyyənləşdirilib.

## Prezident kuboku turniri başa çatıb

***Binə Atçılıq Mərkəzinin qapalı manejində çövkən milli oyunu üzrə Prezident kuboku turnirinin final matçı və üçüncü yer uğrunda qarşılaşma keçirilib.***

Turnirin finalında "Buta Golden" komandasını 3:0 hesabı ilə məğlub edən "Omar" klubu ilk dəfə kuboka sahib olub. Üçüncü yer uğrunda görüşdə isə "Polad" komandası "Sərhədçi"ni məğlub edib - 5:0.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti Elçin Quliyev, Gənclər və İdman naziri Azad Rəhimov, Mədəniyyət naziri Əbülfəs Qarayev, Dünya Etnosport Konfederasiyasının prezidenti Bilal Ərdoğan, ölkəmizin idman ictimaiyyətinin və media nümayəndələri final qarşılaşmasını izləyiblər.

Final matçından sonra qaliblər və turnirin ən yaxşı idmançıları mükafatlandırılıblar. Turnirin ən yaxşı oyunçusu Rauf Tahirov ("Omar"), ən yaxşı atı isə "Şaban" ləqəbli at elan edilib.

ARAF-ın prezidenti Elçin Quliyev fəxri kürsüdə yer alan komandaların üzvlərinə kubok və medalları təqdim edib.

Xatırladaq ki, dekabrın 13-də start verilən turnirin qrup və dörddəbir final mərhələlərinin oyunları Şəkinin Daşüz kəndindəki Respublika Milli Atüstü Oyunları Mərkəzində keçirilib. Qrup mərhələsində 12 komanda 4 qrupda mübarizə aparıb. A qrupunda "Omar", "İsmayıllı", "Murad", B qrupunda "Polad", "Şəki", "Qarabağ", C qrupunda "Buta", "Ağcabədi", "Köhlən", D qrupunda isə "Sərhədçi", "Ağstafa", "Qala" komandaları yer alıblar. Dörddəbir finalda "Sərhədçi" - "Şəki" (1:0), "Buta" - "Murad" (2:0), "Polad" - "Qala" (6:0) və "Omar" - "Köhlən" (4:0) qarşılaşmaları keçirilib.

Binə Atçılıq Mərkəzinin qapalı manejində oynanılan yarımfinal görüşlərində isə "Omar" komandası "Polad"ı 2:1, "Buta Golden" isə "Sərhədçi"ni 4:1 hesabı ilə məğlubiyyətə uğradıb.

Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Atçılıq Federasiyasının dəstəyi ilə keçirilən turnirin ümumi mükafat fondu 50 min manat olub.

Xatırladaq ki, ötənilki turnirin finalında "Sərhədçi" komandası "Omar"ı 1:0 hesabı ilə məğlub etmişdi.

## *Bu il Azərbaycan Velosiped İdmanı Federasiyası üçün uğurlu nəticələrlə yadda qalıb*

Başa çatmaqda olan 2019-cu il Azərbaycan Velosiped İdmanı Federasiyası üçün uğurlu nəticələrlə yadda qalıb.

Bu fikirlər Respublika Velotrekində keçirilən ilin yekun toplantısında səsləndirilib.

Tədbirdə hesabat məruzəsi ilə çıxış edən federasiyanın baş katibi Fərhad Əliyev bildirib ki, ilin əsas hadisəsi Azərbaycan yığma komandası üzvlərinin şose velosipedinin qrup ötüşməsində Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya qazanması olub. Rio-2016 Yay Olimpiya Oyunları ilə müqayisədə Tokio Olimpiadası üçün iştirakçı sayının 150-dən 130-a endirilməsi mübarizəni daha da çətinləşdirib. Bütün lisenziya yarışlarında iştirak edən yığmamızın üzvləri 894 xal toplayıb və dünya reytinqində 44-cü olmaqla arzuolunan lisenziyaya sahib çıxıb.

Baş katib bildirib ki, bu yarışlar zamanı millimizin lider idmançıları Elçin Əsədov və Samir Cəbrayılov Avropa, Asiya və Afrikada keçirilən yarışlarda 12 dəfə fəxri kürsüyə qalxıblar. Bundan başqa, gənc oğlan və qızlardan ibarət yığma komanda üzvlərindən Nəcəf Bağırov, Nikita Sıtov və Lalə Əbdürrəhmanova İran, Belçika və Türkiyədə keçirilən beynəlxalq yarışların qalib və mükafatçısı olublar.

"İl ərzində əldə olunan nailiyyətlər ölkə idmanı rəhbərliyinin də diqqətindən kənarda qalmayıb. Milli Olimpiya



Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev yığma komandamızın baş məşqçisi Əbülfəz Məmmədovu mənzillə təltif edib. Bundan başqa, Əbülfəz Məmmədova Əməkdar məşqçi, ölkəmizi Tokio-2020 Yay Olimpiya Oyunlarında təmsil edəcək Elçin Əsədova isə Əməkdar idman ustası fəxri adları verilib", - deyə F.Əliyev əlavə edib.

İclasa yekun vuran Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyi Direktorlar Komitəsinin üzvü Sahib Ələkbərov növbəti ildə federasiyanın qarşısında duran əsas vəzifələrdən danışıb və il ərzində fərqlənən idmançı və məşqçilərə fəxri diplomlar təqdim edib.

## Azərbaycan Güləş Federasiyası ilin yekunu ilə bağlı tədbir keçirib

Azərbaycan Güləş Federasiyası (AGF) cari ilin yekunu ilə bağlı tədbir keçirib. Mərasimdə AGF-nin rəhbərliyi, əməkdaşları və yığmaların məşqçiləri iştirak ediblər.

Tədbirdə AGF-nin prezident əvəzi Namiq Əliyev çıxış edərək güləş ictimaiyyətini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edərək deyib: "Bu il Qazaxıstanda keçirilən dünya çempionatında Olimpiadaya iki lisenziya qazandıq. Əlbəttə, bu, bizi qane edə bilməz. 2020-ci ildə daha çox lisenziya qazanmalıyıq. Ümid edirəm ki, Olimpiadada da uğurla çıxış edəcəyik. Çünki bütün idmansevərlərin əsas medal gözləntisi güləşdəndir. Biz də ümidləri doğrultmalıyıq. Federasiyanın hər bir əməkdaşının qazanılan uğurlarda payı var. Bizim mehriban kollektivimiz var və biz bir ailə kimiyik".

Azərbaycan Prezidenti İlham Əliyevin idmana xüsusi diqqət və qayğısından danışan N.Əliyev dövlətimizin başçısının güləşin inkişafı ilə də yaxından maraqlandığını vurğulayıb: "Prezident İlham Əliyev güləşçilərimizi yaxşı tanıyır və onların çıxışlarını təhlil edir. İşinin çoxluğuna baxmayaraq, güləşçilərimiz haqqında bu dərəcədə məlumatlı olması bizi həm təəccübləndirir, həm də daha böyük uğurlara həvəsləndirir. Tədbirimizdə Mariya Stadnik də iştirak edir. O, dünya çempionatında əsl peşəkarlıq göstərərək qızıl medal qazandı. İnanıram ki, qarşıdan gələn Olimpiadada nəhayət arzusuna çataraq fəxri kürsünün ən yüksək pilləsinə qalxacaq".

AGF-nin vitse-prezidentləri - Elçin Cəfərov, Firdovsi Umudov, Namiq Abdullayev, idman şöbəsinin müdiri Yaqub Məmmədov, Hakimlər Kollegiyasının sədri Qərib Əliyev və qadınlardan ibarət yığmamızın baş məşqçisi Aslan Ağayev güləşçilərimizin Tokio Olimpiya Oyunlarında da uğur qazanacaqlarına əminliklərini bildiriblər.

## *Rostislav Pevtsov "İlin ən yaxşı triatlonçusu" adına namizəddir*

Avropa Triatlon Şurası (ETU) gələn ilin fevralında Minskdə keçiriləcək konfransında "İlin ən yaxşı triatlonçusu"nun adını açıqlayacaq. Siyahıda Azərbaycan yığmasının üzvü Rostislav Pevtsovun da adı var. İdmançımız cari mövsümdə Avropa çempionatında bürünc medal qazanıb, Avropa kuboku yarışlarının qalibi olub. Həmçinin akvatlon üzrə dünya çempionatında birinci yeri tutub. R.Pevtsov Qətərin paytaxtı Dohada keçirilən birinci Dünya Çimərlik Oyunlarında da fərqlənib. Akvatlon üzrə yarışda o bürünc medala layiq görülüb. Sonra R.Pevtsov Kseniya Levkovskaya ilə birlikdə estafetdə ikinci olublar. Hazırda Azərbaycan təmsilçisi Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün mübarizə aparır.



# Azərbaycan Gimnastika Federasiyası üçün uğurlarla zəngin daha bir il geridə qalır

## Gimnastlarımız 2019-cu ildə 104 medal qazanıblar

***Azərbaycan Gimnastika Federasiyası (AGF) daha bir ili mühüm uğurlarla başa vurur. 2019-cu il həm ölkəmizdə keçirilmiş gimnastika tədbirləri, həm də gimnastlarımızın uğurları ilə zəngin olub.***

Milli Gimnastika Arenası bu il səkkiz beynəlxalq yarışa ev sahibliyi edib. Yarışlar mövsümünə ilk olaraq ənənəvi dünya kubokları ilə start verilib. Fevralda batut gimnastikası, martda idman gimnastikası və apreldə təşkil edilmiş bədii gimnastika üzrə dünya kuboklarında iştirak etmək üçün ümumilikdə 1020-dən çox insan ölkəmizə səfər edib. Bundan əlavə, apreldə həm də gənclər arasında bədii gimnastika üzrə ikinci "AGF Junior Trophy" adlı beynəlxalq turnir keçirilib. Bu yarışın sonuncu günündə qrup hərəkətləri komandamız qızıl medal qazanıb və himnimizi tamaşaçılarla birgə səsləndirib. Onların həmin andan görüntülənmiş videosu AGF-nin sosial şəbəkələrdəki hesablarında ən çox baxılan və paylaşılan video olub.

Mayda Azərbaycanda ilk dəfə gimnastikanın iki növü üzrə birgə Avropa çempionatı təşkil edilib. Bədii gimnastika üzrə qitə birinciliyi ölkəmizdə dördüncü dəfə təşkil olunsa da, aerobika gimnastikası üzrə Avropa çempionatına ölkəmiz ilk dəfə ev sahibliyi edib. Hər iki növ üzrə yarışlara 500-dən çox gimnast qatılıb.

Milli Gimnastika Arenasında keçirilmiş növbəti turnir - XV Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində kişi və qadın idman gimnastikası üzrə yarışlar olub. Bakı-2019-da 38 ölkədən 170 idmançı qüvvəsini sınayıb. Nəhayət, bu il ölkəmizdə təşkil edilmiş ən genişmiqyaslı gimnastika tədbiri - Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli bədii gimnastika üzrə dünya çempionatı sentyabrda baş tutub. Azərbaycanda ikinci dəfə keçirilmiş bu çempionatda bədii gimnastika üzrə qrup hərəkətləri komandamız çoxdan gözlənilən nəticəni - Tokio-2020-yə lisenziya qazanıb. Olimpiadaya daha bir vəsiqəni isə Zöhrə Ağamirova əldə edib.

Bədii gimnastlarımızın bu uğurundan dərhal sonra Olimpiya Oyunlarına daha iki lisenziyanı idman gimnastlarımız qazanıblar. Almaniyanın Ştutqart şəhərində keçirilmiş idman gimnastikası üzrə dünya çempionatında idman gimnastlarımız Marina Nekrasova və İvan Tixonov çoxnövçülük üzrə təsnifat mərhələlərində yetərli xal toplayaraq, Olimpiya Oyunlarına vəsiqəni təmin ediblər. M.Nekrasovanın əldə etdiyi lisenziya Azərbaycanın qadın idman gimnastikası tarixində ilk Olimpiya lisenziyasıdır.

İdmançılarımızın uğurlarından danışarkən gənc və yeniyetmə gimnastlarımızı, xüsusilə, qeyd etmək lazımdır. Bu il onlar üçün həm Azərbaycanda, həm də ölkə xaricindəki yarışlarda qazandıqları uğurları ilə əlamətdar olub.

Yeni ildən etibarən böyük gimnastların yarışlarına qatılacaq Arzu Cəlilova cari ildə gənclər arasında ilk dəfə olaraq Rusiyada təşkil edilmiş ilk dünya çempionatında iki medal - topla hərəkətlərdə gümüş, iplə isə bürünc medal qazanıb. İdman gimnastımız Səməd Məmmədli XV Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində idman gimnastikası üzrə yarışlarda dəstəli atda gümüş medala layiq görülüb. Akrobatlarımız isə İsrailin Holon şəhərində keçirilmiş Avropa çempionatından bir medal dəsti ilə qayıdıblar. Murad Rəfiyev və Daniel Abbasov cütlüyü balans hərəkətlərində bürünc, çoxnövçülükdə gümüş və temp hərəkətlərində qızıl medala sahib olublar. Yeniyetmə gimnastlarımızın sevincli medal xəbərləri isə Yaponiyada keçirilən batut gimnastikası üzrə Dünya Yaş Qrupları Yarışlarından gəlib. Turnir çərçivəsində batut yarışlarında Maqsud Mahsudov fərdi proqramda qızıl, sinxron proqramda Hüseyn Abdullayevlə birgə gümüş medal əldə ediblər. Tamblinq yarışlarında isə Aleksey Karataşov bütün rəqiblərini üstələyərək öz yaş qrupunda qalib olub.

Gənc gimnastlarımızın qazandıqları bu uğurlar Azərbaycanda gimnastika idman növlərinin düzgün və planlı şəkildə inkişaf etdiyini və gələcəkdə Avropa, dünya çempionatlarında, hətta Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil edəcək gənc nəslin yetişdiyini göstərir. Bu il öz çıxışları ilə yadda qalan bu idmançılar növbəti illərdə də dünya və Avropa çempionatlarında çıxış edəcəklər.

2019-cu ildə böyüklər kateqoriyasında yarışan gimnastlarımız da ölkəmizdə və xaricdə keçirilmiş yarışlarda çoxsaylı medallar qazanıblar. Dünya kubokları və bir sıra beynəlxalq turnirlərdə əldə edilmiş medallarla yanaşı, İtaliyada keçirilmiş Ümumdünya Yay Universiadasında Zöhrə Ağamirovanın 2 gümüş medalını, Marina Nekrasovanın qızıl medalını, akrobatlarımız - Abdulla Əl-Məşayxi və Ruhidil Qurbanlı cütlüyünün Belarusda təşkil edilmiş ikinci Avropa Oyunlarında qazandıqları 2 gümüş, 1 bürünc və İsraildə keçirilmiş Avropa çempionatında qazanılan 2 bürünc medallarını qeyd etməyə dəyər.

Aerobika gimnastikası üzrə təmsilçilərimiz isə "aerodans" proqramında mükəmməl çıxış nümayiş etdirərək, Bakıda ilk dəfə təşkil edilmiş qitə birinciliyində Avropa çempionluğunu əldə ediblər.






Ümumilikdə isə gimnastlarımız 2019-cu il ərzində 32-si qızıl, 33-ü gümüş və 39-u bürünc olmaqla 104 medal qazanıblar.

Gimnastlarımızın uğurları ilə yanaşı, məşqçi və hakimlərimizin də fəaliyyətini qeyd etmək lazımdır. Belə ki, onlar tez-tez Beynəlxalq Gimnastika Federasiyası (FIG) və bu sahədə çalışan bir sıra təşkilatlar tərəfindən müxtəlif tədbirlərə dəvət alırlar və onların fəaliyyəti daim qiymətləndirilir. Bu il bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasileva FIG tərəfindən "Əməkdar məşqçi" diplomu ilə təltif olunub. Kişi və qadın idman gimnastikası üzrə beynəlxalq dərəcəli hakim Rza Əliyev isə "Uzun müddətli fərqlənən hakimlik" fəaliyyətinə görə FIG tərəfindən "Qızıl diplom"a layiq görülüb.

Hakimlərimiz bu il Minskdə keçirilmiş Avropa Oyunları, gimnastika növləri üzrə Avropa və dünya çempionatları yarışlarında hakimlik etmək üçün Avropa Gimnastika İttifaqı və FIG tərəfindən dəvət olunublar.

Cari ildə AGF fəaliyyət sahəsini daha da genişləndirib. Bu ildən etibarən federasiya FIG tərəfindən tanınan gimnastika növləri sırasına yeni daxil olmuş parkuru inkişaf etdirmək istiqamətində müəyyən addımlar atıb. Bu növ üzrə təmsilçilərimiz ilk dəfə olaraq parkur üzrə dünya kubokunda iştirak ediblər. Eləcə də, təmsilçimiz parkur üzrə beynəlxalq hakimlik kurslarına qatılaraq, imtahanlardan müvəffəqiyyətlə keçib və beynəlxalq hakimlik dərəcəsini əldə edib.

Bütün bunlarla yanaşı, AGF tərəfindən bu il müxtəlif gimnastika növləri üzrə məşqçilik və hakimlik kursları təşkil edilib. Kişi idman gimnastikası üzrə ikinci, batut gimnastikası üzrə birinci, aerobika gimnastikası üzrə ikinci dərəcəyə aid FIG Akademiyasının məşqçilik kursları, eləcə də bədii gimnastika və "TeamGym" növü üzrə yerli mütəxəssislər üçün məşqçilik və hakimlik kursları təşkil edilib.

Təsadüfi deyil ki, 2018-ci ilin yekunlarına, əsasən də, Azərbaycan Gimnastika Federasiyasının fəal fəaliyyəti FIG tərəfindən yüksək qiymətləndirilib və "Mükafatlandırılan federasiyalar"ın siyahısında 2017-ci ildə olduğu kimi yenidən birinci olub.

Azərbaycanda təşkil edilmiş gimnastika tədbirləri ölkə iqtisadiyyatı üçün də faydalı olub. Belə ki, bu tədbirlərdə iştirak üçün ölkəmizə gələn qonaqlar paytaxtımızın müxtəlif mehmanxanalarında 11 min 500 gecədən artıq otaqlar sifariş ediblər. Bu otaqların əksəriyyətinin ikinəfərlik otaqlar olmasını nəzərə alaraq, həmin şəxslərin alış-verişə, həmçinin qidalanmaya, müxtəlif suvenirlər və hədiyyələrin alınmasına, muzey və şəhərin görməli yerlərinə baş çəkmələrinə xərclədiyi maliyyə vəsaitinin müxtəlif qədər ölkə iqtisadiyyatına da öz töhfəsini verdiyini güman etmək olar.

Bakı ilə yanaşı, bölgələrdə də gimnastika növlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir. Bu il ərzində daha 4 bölgədə - Lənkəran və Qaxda bədii, Masallı və Şirvanda isə kişi idman gimnastikası üzrə bölmələr fəaliyyətə başlayıb. Eləcə də yerli yarışlar təkcə paytaxtda deyil, digər şəhərlərdə də təşkil edilir. Belə ki, bu il kişi və qadın idman gimnastikası, akrobatika və aerobika üzrə noyabr ayında keçirilmiş birgə yarışlar Sumqayıtda təşkil olunub.

Bütün bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd əhalinin sağlam həyat tərzi sürməsinə kütləvi surətdə cəlb edilməsi, gimnastika idman növünün daha çox insana aşılanması və bu sahədə kiçik uşaqlarla yanaşı, valideynlərin, eləcə də bütün yaş qruplarına aid insanların fəallığının artırılmasıdır.

Gimnastika növləri üzrə yığma komandaların üzvləri, onların valideynləri, həmçinin məşqçilərin iştirakı ilə ilk dəfə təşkil edilmiş birinci AGF estafet yarışlarını da bu tədbirlər sırasına aid etmək olar. Kollektiv ruhunu inkişaf etdirmək və iştirakçıların fiziki hazırlığını yüksəltmək üçün keçirilmiş bu tədbirdə həm uşaqlar, həm valideynlər, həm də məşqçilər maraqlı oyunlarda iştirak edərək əyləncəli anlar yaşayıblar.

Federasiya ilin son günlərində ən yaxşı idmançıların onluğuna daxil olmuş gimnastların adlarını da elan edib. Bunlar Abdulla Əl-Məşayxi və Ruhidil Qurbanlı cütlüyü (akrobatika), Zöhrə Ağamirova (bədii gimnastika), Arzu Cəlilova (bədii gimnastika), Daniel Abbasov və Murad Rəfiyev cütlüyü (akrobatika), Marina Nekrasova (qadın idman gimnastikası), "aerodans" qrupu (aerobika), qrup hərəkətləri komandası (bədii gimnastika), Səməd Məmmədli (kişi idman gimnastikası), Maqsud Mahsudov (batut gimnastikası) və Nikita Simonovdur (kişi idman gimnastikası).

Nəhayət, 2019-cu ilə ənənəvi Yeni il şousu ilə yekun vurulub. Artıq uzun illərdir ki, təşkil edilən bu şounun aktyorları gimnastika növləri üzrə yığma komandaların üzvləri, məşqçi və xoreoqraflarıdır. Hər il böyük maraqla qarşılanan bu şouda rəngarəng işıq, səs və qrafik effektlərdən, eləcə də xüsusi geyimlərdən istifadə olunub. Hər kəsin səbirsizliklə gözlədiyi bu şou "Tarik Gimmaster və dostlarının sehrli sərgüzəştləri" adlanıb.

Federasiyanın geniş spektrli fəaliyyəti təkcə bunlarla yekunlaşmır. Bu idman növünün ölkəmizdə daha da populyarlaşması və təbliğatı məqsədilə gimnastika növləri üzrə yığma komandaların iştirakı ilə sosial videoçarxlar çəkilir, sosial layihələr həyata keçirilir, eləcə də məhdud imkanlı insanlarla əməkdaşlıq edilir. Növbəti ildə də AGF-nin bu istiqamətdə fəaliyyəti davam etdiriləcəkdir.

## Azərbaycan Voleybol Federasiyası ilə Avropa Voleybol Konfederasiyası arasında müqavilə imzalanıb

*Azərbaycan Voleybol Federasiyası (AVF) qarşıdakı illərdə bir sıra yeniliklər etməyi planlaşdırır. Bununla bağlı AVF-in baş katibi Cəlil Cəfərov və idman şöbəsinin rəhbəri Elnur Məmmədov Avropa Voleybol Konfederasiyasının (CEV) prezidenti Aleksandr Boriçiç ilə görüşdə bir sıra mühüm məsələləri müzakirə ediblər.*




Görüşdə Azərbaycanda voleybolun daha da inkişaf etdirilməsi üçün yeni müqavilə imzalanıb. Uşaq voleybolunun inkişafını nəzərdə tutan bu müqavilə 2020-2024-cü illəri əhatə edəcək. Müqavilədə uşaqların voleybola cəlb olunması, bu idman növünün fəal həyat tərzinə çevrilməsi, sosial bacarıqlarının inkişaf etdirilməsi və digər məsələlər əksini tapıb. Şərtlərə uyğun olaraq, CEV və AVF tərəfindən seçiləcək orta məktəblər voleybol idman növü üçün lazımi avadanlıqla təmin olunacaq. Həmçinin CEV tərəfindən təyin olunacaq voleybol mütəxəssisləri dörd il müddətində Bakıda və bölgələrdə seminarlar keçəcəklər.

CEV prezidenti A.Boriçiç görüşdə müqavilənin imzalanmasından məmnunluğunu ifadə edərək, sənədin Azərbaycan voleybolunun inkişafında böyük rol oynayacağına inandığını vurğulayıb. Qeyd edib ki, Azərbaycanda bu idman növünün inkişafı istiqamətində yerli federasiya tərəfindən görülən işlər diqqət mərkəzindədir.

Qeyd edək ki, AVF rəsmiləri görüşdən əvvəl bölgələrdə və Bakıda orta məktəb müəllimləri ilə bir araya gələrək voleybol qrupları olan məktəblərin siyahısını hazırlayıb.

## İddiaçılar turniri 2020: yekun siyahı

Beynəlxalq Şahmat Federasiyası (FIDE) "İddiaçılar turniri 2020"də iştirak edəcək şahmatçıların yekun siyahısını dərc edib. 2020-ci ilin martında Rusiyanın Yekaterinburq şəhərində keçiriləcək turnirdə 8 şahmatçı iştirak edəcək. Belə ki, azərbaycanlı şahmatçı Teymur Rəcəbovla yanaşı, Fabiano Karuana (ABŞ), Dinq Liren (Çin), Aniş Qiri (Niderland), Vanq Hao (Çin), Aleksandr Qrişuk, Yan Nepomnyaşi, Kirill Alekseyenko (hər üçü Rusiya) iddiaçılar turnirinin iştirakçıları sırasında yer alıblar.

Xatırladaq ki, bu il T.Rəcəbov dünya kubokunun qalibi olmaqla, həm də iddiaçılar turnirinə vəsiqə əldə edib.

## *Qrossmeysterimiz dördüncü oldu*

Şahmat üzrə "Grand Prix 2019" yarışları başa çatıb. Şahmatçımız Şəhriyar Məmmədyarov "Grand Prix 2019" seriyasından olan yarışların yekunlarına görə 10 xalla 4-cü yerdə qərarlaşıb. Təmsilçimiz ən yaxşı nəticəni Qran-Pri seriyasının Riqa mərhələsində qalib olmaqla göstərib. Qran-Pri seriyasının qalibi rusiyalı şahmatçı 20 xalla Aleksandr Qrişuk olub. İkinci yeri Rusiyanın digər təmsilçisi, İsrailin Qüds/Yerusəlim şəhərində keçirilmiş seriyasının dördüncü mərhələsinin qalibi Yan Nepomnyaşi tutub. Hər iki şahmatçı iddiaçılar turnirinə vəsiqə əldə edib.

## İspaniyada şahmat festivalında ikinci yer

İspaniyanın Sitjes şəhərində keçirilən şahmat festivalına yekun vurulub. Yarışda ölkəmizi təmsil edən Vasif Durarbəyli uğurlu çıxışı ilə yadda qalıb. Turnirin A qrupunda mübarizə aparan şahmatçımız 8 xalla ikinci yeri tutub.

Yarışın qalibi 8,5 xalla ukraynalı Anton Korobov olub.

## "Judo Club 2012" klubu ilin son yarışını 12 medalla başa vurdu




Dekabrın 24-26-da Bakı İdman Sarayında kişilər və qadınlar arasında cüdo üzrə Azərbaycan çempionatı keçirilib. Yarışda paytaxt və bölgələri təmsil edən 40 komandanın heyətində 331 (272 kişi, 59 qadın) cüdoçu mübarizə aparıb. İlin son yarışında "Judo Club 2012" nin cüdoçuları da qüvvələrini sınayıblar. Klubun idmançıları çempionatın fərdi yarışlarında uğurla çıxış edərək 3 qızıl, 2 gümüş və 5 bürünc medal qazanıb. Gərgin mübarizə şəraitində keçən yarışda klubun təmsilçilərindən Zeynəb Məmmədova (-52 kq), Yaşar Nəcəfov (-60 kq) və Murad Fətiyev (-81 kq) bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adına layiq görülüblər.

Aidə Baxışova (-70 kq) və Fəqan Quluzadə (-81 kq) yalnız finalda uduzaraq gümüş medala sahib çıxıb. Klubun aktivinə bürünc medalları isə Diana Şoranova (-63 kq), Nurlan Osmanov (-66 kq), Nərgiz İbrahimova (-70 kq), Kənan Quluzadə (-73 kq) və Hüseyn Məmmədov (+100 kq) yazdırıb. Gülşən Nəzərova (-52 kq), Nərgiz Hacıyeva (-63 kq), Elçin Hüseynov (-66 kq), Günel Quliyeva (-70 kq) və Elvin Əhmədli (-90 kq) isə bürünc medal uğrunda görüşdə məğlub olaraq beşinci yerlə kifayətləniblər. Fərdi yarışlarda "Judo Club 2012" klubu medalların əyarına görə çempionatda ikinci pillədə qərarlaşıb. Turnirin sonuncu günündə komanda yarışlarına start verilib. 12 komandanın iştirakı ilə keçirilən yarışda "Judo Club 2012"nin kişilərdən və qadınlardan ibarət komandası da medallar uğrunda mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən yarışda klubun kişilərdən ibarət komandası gümüş medala layiq görülüb. "Judo Club 2012"nin qadınlardan ibarət komandası isə bürünc medallara sahib çıxıb.

Beləliklə, "Judo Club 2012" klubu Azərbaycan çempionatını 12 (3 qızıl, 3 gümüş, 6 bürünc) medalla başa vurub.

Ölkə çempionatının qalib və mükafatçılarına Azərbaycan Cüdo Federasiyası, Gənclər və İdman Nazirliyinin medal və diplomları, həmçinin pul mükafatları təqdim olunub. Komandaların nümayəndələri isə kuboklar və diplomlarla mükafatlandırılıblar.

* * *

Gürcüstanın Zuqdidi şəhərində cüdo üzrə yeniyetmələr arasında beynəlxalq turnir keçirilib. Yarışda Azərbaycanla yanaşı, Gürcüstan, Dağıstan, İnquşetiya və Ermənistan komandasını təmsil edən 150-yə yaxın idmançı qüvvəsini sınayıb. 2003-2005, 2006-2007, 2008-2010-cu illər təvəllüdlü idmançılar arasında keçirilən yarışda "Judo Club 2012"nin yetirmələri də çıxış ediblər. Cüdo üzrə Azərbaycanın Əməkdar idman ustası, usta cüdoçular arasında dəfələrlə dünya və Avropa çempionu Zaur Paşayevin rəhbərliyi altında Gürcüstana yollanan komandanın heyətində klubun həkimi Məhəmməd Hüseynzadə və 28 idmançı yer alıb. "Judo Club 2012"nin yetirmələri müxtəlif yaş qrupları üzrə yarışlarda uğurla çıxış edərək 3 qızıl və 8 bürünc medal qazanıb. Qızıl medallara Nicat Eyvazov (34 kq), Ruslan Quliyev (42 kq) və Abdüləziz Məmmədov (66 kq) layiq görülüblər. Klubun aktivinə bürünc medalları isə Mirmehdi Aslanlı (24 kq), Cavanşir Comərdov (38 kq), Amil Həsənov (42 kq), Riad Mustafazadə (42 kq), Mehdi Cəfərov (55 kq), Nurlan Abdullayev (60 kq), Polad Əhmədov (81 kq) və Orxan Ağayev (+87 kq) yazdırıb.

Klubun idmançılarının uğuru bununla yekunlaşmayıb. Belə ki, yarışda iştirak edən "Judo Club 2012"nin üzvü Əli Arzumanlı (38 kq) turnirin ən texnikalı və nizam-intizamlı cüdoçusu adına layiq görülüb.

Qeyd edək ki, Əli Arzumanlı bu il Türkiyədə keçirilən Qaradəniz beynəlxalq turnirində 38 kq çəki dərəcəsində çempion adına sahib çıxıb.

## Avropa birinciliyində uğurla çıxış etmiş taekvondoçularla görüş

Almaniyanın Sindelfinqen şəhərində uşaq taekvondoçular arasında keçirilən Avropa birinciliyində uğurla çıxış etmiş balaca idmançılarla görüş keçirilib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) rəisi Raqif Abbasov balaca idmançılarımızın qazandıqları nəticələri yüksək qiymətləndirərək onlara gələcək yarışlarda uğurlar arzulayıb.



"Ümid" taekvondo klubunun yetirmələri Mehdi Budaqlı (27 kq) qızıl, Fərdi Quşxani (35 kq) isə bürünc medala sahib olublar.

Sonda balaca idmançılarla xatirə şəkli çəkdirilərək, onlara Baş İdarə tərəfindən hədiyyələr təqdim olunub.

## Bakı çempionatında qaliblər müəyyənləşdi

Azərbaycan Texniki Universitetinin İdman Sarayının qılıncoynatma zalında şpaqa və sablya üzrə Bakı çempionatı keçirilib.

Yarışda oğlanlar arasında sablyada Cavanşir Ağakişiyev və şpaqada Ruslan Həsənov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qızların mübarizəsində isə sablyada Zərifə Hüseynova və şpaqada Nazilə Rəhimova birinci olublar.

Turnirin mükafatçıları Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Qılıncoynatma Federasiyası tərəfindən diplom və medallarla təltif olunublar.



## Bir cümlə, bir xəbər

- Dortmund "Borussiya"sı yarımmüdafiəçi Ceydon Sançonun "Çelsi"yə transferi müqabilində 100 milyon funt sterlinq tələb edir.

- İspaniyanın "Valensiya" klubu "Roma"nın italiyalı futbolçusu Alessandro Florensini heyətinə cəlb etmək istəyir.

- Madrid "Real"ı "Real Sosyedad"da icarədə olan yarımmüdafiəçisi Martin Edeqoru təcili geri çağırır.

- "Fiorentina" "İnter"də çıxış edən yarımmüdafiəçisi Matteo Politano ilə yaxından maraqlanır.

- Münhen "Bavariya"sı qış transfer pəncərəsində "Mançester Siti"də çıxış edən Leroy Saneni heyətində görmək istəyir.

- "Yuventus" "Mançester Yunayted"də çıxış edən Pol Poqbanı 60 milyon avro və Emre Can müqabilində transfer etməyi planlaşdırır.

- Xorvatiyalı hücumçu Mario Mandzukiç "Yuventus"dan ayrılaraq Qətərin "Əl-Dühail" klubuna keçib.

- London "Arsenal"ı "Lester"də çıxış edən Vilfred Ndidini heyətinə cəlb etməyə hazırlaşır.

- "Valensiya" mərkəz müdafiəçisi Ezekel Qarayla müqaviləni artırmaq istəyir.

- "Barselona" "Mançester Yunayted"də çıxış edən Encer Qomeslə maraqlanır.

- "Tottenhem" Kristan Eriksenin müqabilində "Real"dan İskonun transferini tələb edir.

- "Leypsiq" Timo Verneri "Çelsi"yə satmağı düşünmür.

- "Roma" Aleksandr Kolarovla 3 milyon avro dəyərində müqavilənin dəyərini artırıb.

- "Mançester Yunayted"in mərkəz müdafiəçisi Markos Roxo yeni ildən sonra İspaniya və İtaliya klublarından təklif gözləyir.

- "Vest Hem" yanvarda ukraynalı Andrey Yarmolenkonu 18 milyon avro funt sterlinq məbləğinə satmaq niyyətindədir.

- "Zalsburq"un futbolçusu Halland bildirib ki, yalnız Pol Poqbanın gedişindən sonra o, "Mançester Yunayted"ə keçmək barədə qərar verəcək.

## Təmsilçimiz kəmər güləşi üzrə dünya çempionu adını qazanıb

Qazaxıstanın paytaxtı Nur-Sultanda kəmər güləşi üzrə dünya çempionatı keçirilib. Çempionatda +100 kq çəki dərəcəsində mübarizə aparan Camal Feyziyev birinci görüşündə Çin idmançısını məğlub edib. Növbəti görüşdə Qırğızıstan təmsilçisini təmiz qələbə ilə üstələyən idmançımız yarımfinalda özbəkistanlı rəqibinə qalib gəlib. C.Feyziyev finalda İran idmançısına da qalib gələrək dünya çempionu adına layiq görülüb. Yarışda ədaləti hakim qismində Rəsul Həsənov qoruyub. Qeyd edək ki, çempionatda 30 ölkədən 200 idmançı mübarizə aparıb.



**Futbol**



*Mobil İSMAYILOV*

# Futbolun estetik tərəfi

Mətləbə keçməzdən əvvəl qısaca da olsa, idman növləri ilə duyğuların, emosiyaların bağlılığına toxunmaq istərdim. Məsələn, voleybolda blok qurmaları, endirilən zərbələrin qarşısının alınmasının mümkünsüzlüyü, bir komandanın gözlənilmədən ardıcıl xallar qazanması, basketbolda ustalıq səviyyəsinə görə oyunçuların nəzərə çarpan fərqliliyi, səbətə peşəkar atışlar, anbaan dəyişən mübarizənin gərginliyi, həndbolda müdafiənin yarılması üsulları, çətin situasiyalardan gözəl zərbələrin vurulması, boksda nokdaunların, nokautların baş verməsi, güləşdə, cüdoda qələbəyə aparan fəndlərin tətbiq edilməsi, eləcə də digər fərdi oyunlarda yüksək texniki hərəkətlərin nümayiş etdirilməsi tamaşaçılarda sevinc hisslərinin, şən əhvali-ruhiyyənin, ümumiyyətlə, müxtəlif reaksiyaların yaranmasına səbəb olur.

İdman yarışlarında hər şey ola bilər. Məsələn, bir də görürsən ən məsul birincilikdə buz üzərində rəqs edən peşəkar idmançı ağılagəlməz şəkildə qəflətən yıxılır. Və bu yıxılmaq ona baha başa gəlir. Axı, söhbət çempionluqdan gedir. Xüsusən, tanınmış, məşhur duetlərin fiqurlu konkisürmə yarışlarında proqramın sonunda cüzi bir səhv, yaxud elə yıxılmaq təhlükəsi çempionluğu öz əli ilə başqalarına verməyə gətirib çıxarır. Halbuki hər şey qaydasında idi: proqrama əməl olunması, yüksək sürət, uğurlu musiqi seçimi, mürəkkəb hərəkətlərin əla formada yerinə yetirilməsi, fantastik rəqs... Üzücüdür, amma nə edəsən...Ulduz idmançıların başına da "belə işlər" gələ bilər. Təbii ki, belə hallarda tamaşaçıların da hansı hissləri keçirmələrini təsəvvür etmək olar.

Nəhayət, gəldik çatdıq milyonların sevimlisi olan futbola... Görün, yer üzündə nə qədər insan futbolun sevincini, fərəhini, digər izaholunmaz duyğularını yaşayır. Azarkeşlər üçün futbol başqa bir aləmdir. Axı, futbolda emosiyaların, hisslərin, duyğuların hər növü var.

Çempionlar Liqasının himni... Hər oyundan qabaq səslənən bu musiqini balaca uşaqdan tutmuş böyüyə qədər hamı bilir. Hamı bilir və səbirsizliklə gözləyir ki, bu himndən sonra Çemionlar Liqasının oyunu başlayacaq. Və yaxud, kuboku ələ götürüb öpərək havaya qaldırmaq necə də gözəl mənzərə yaradır. Yerində sanki otura bilmirsən, möcüzəli, şən, şirin duyğular səni bürüyür. Bax, belə gözəl anlardır futbolun estetik tərəfi.

Futbolun məhz estetik tərəfi milyonların qəlbini fəth edir. Əlbəttə, təbii ki, dünyanın ən yaxşı futbolçuları, yüksək peşəkarlıq səviyyəsinə malik olanlar, xüsusi, fərqli üslublu ulduzlar azarkeşlərə, milyonlarla futbol həvəskarına estetik nümunələr bəxş edə bilərlər. Dahi futbolçuların meydanlardakı çıxışından isə daha çox estetik zövq alırlar. Elə bu futbolçuların nümayiş etdirdikləri gözəl oyunlar, gözlənilməz hərəkətlər, vurduqları misilsiz qollar azarkeşlərdə, tamaşaçılarda fantastik, ölçüyəgəlməz ovqat, emosiyalar, ləzzət hissləri yaradır. Daim diqqəti cəlb edən, həmişə yadda qalan bu futbolçular futbolun bəzəyidir. Beləri futbola parlaq rənglər qatanlardır. Təbii ki, burada dahi futbolçuların mükəmməl oyun üslubu, qeyri-adi coşqunluğu, bütövlükdə görünüşü, o cümlədən bədən quruluşu, sifət cizgiləri, saç düzümü, meydanda davranışı da nəzərə alınmalıdır. Onların bəziləri sanki ən yaxşı "dizaynerlərdir". Ona görə də futbolun estetik tərəfi əsil incəsənətdir. Ona görə də gözəl futbol çoxları üçün əslində maraqlı teatr səhnəsidir.

Futbol dünyasında öz imzalarını yaradanlar və yaşadanlar elə bizlərə zövq bəxş edənlərdir. Bu imzaları milyonlar sevir və alqışlayır. Vaxtı ilə monolit möcüzələr yaradanlar ecazkar oyunları ilə yaddaşlara köçənlərdir. 18 yaşından başlayaraq futbol aləmində qısa zamanda yüksək sıçrayışlar edən Anatoli Banişevskidən başlamaq istəyirəm. Böyük rəqabətə baxmayaraq gənc yaşında SSRİ yığmasının tərkibinə daxil edilən bakılı forvard öz parlaq oyunu ilə heyətin əsas oyunçusuna çevrilmişdi.

Futbolun nəhəng imzaları olan Eysebiyo, Maradona, Ronaldinyo, Messi haqqında bu yaxınlarda oxucuların ixtiyarına verilmiş"Qo-o-ol!" kitabında yazmışam. Onlar dünya futbolunun inciləridir. Bu futbolçuların karyerasını fenomenal, nadir karyera adlandırırlar. Təbii ki, Peleni də bu siyahıya əlavə edərək bildirirəm ki, bu futbolçuların ən böyük zəfər anları elə futbolun həm də estetik tərəfini əhatə edir. Sözsüz ki, onlar mənim gəncliyimin qəhrəmanları idilər. Gəlin, əfsanə yaradan bu futbolçuların sırasına Ronaldonu da qataq. Hər biri öz-özlüyündə bir ümman, bir dərya olan bu möhtəşəm isimlərin qarşısında azarkeşlər hər zaman sədaqətlə səcdə ediblər. Əlbəttə, artıq burada söhbət ulduz futbolçulardan deyil, dahi futbolçulardan gedir. Maradona ilə Ronaldinyoda bütövlükdə oyun ərzində estetik harmoniya sanki əvvəlcədən və uzaqdan siqnal verirdi: "Mütləq gəlib mənim oyunuma, baxın həzz alın! Mən hamıdan güclüyəm, mən hamıdan üstünəm!". Ecazkar emosiyaları dahi futbolçular yarada bilər. Belələrini gənc futbolçular özlərinə ideal seçirlər. Zaman-zaman dünya futbolunda dahi futbolçular olub. Hansı ölkəyə, hansı millətə məxsusluğundan asılı olmayaraq beləri bütün dünyada qəbul edilir. Estetik harmoniyadan təsadüfən söz salmadım. Fikrimcə, bəlkə də istedad, uzun müddət formada qalmaq, stabillik və digər parametrlər baxımından Messi, Ronaldo irəlidə olsalar da, estetik həzz alma baxımından Maradona, Ronaldinyo daha ön planda görünürlər. Futbolun bir idman növü kimi incəsənət olduğuna əminlik yaranması üçün adı çəkilən futbol dahilərindən əlavə Corc Bestin, Kempesin, Maldininin, Roberto Karlosun, Bekhemin, braziliyalı Ronaldonun, Zidanın, George Hacının, Alessandro Del Pyeronun, Tottinin, İnyestanın oyunlarını yada salmaq və yaxud bir daha onlara yenidən baxmaq kifayətdir.









Sonradan neçə-neçə futbolçu özünü Bestə bənzədib... Vaxtı ilə Platinini, indi isə Qrizmanı misal göstərmək olar. Yəqin azarkeşlərin yadındadır ki, Best həmişə maykasını üstdən salırdı. Elə Platini belə edərək digər keyfiyyətləri ilə də bu məşhur futbolçunu təkrar etməyə çalışırdı. Qrizman da oyun texnikası, jestləri, hətta təbəssümü ilə də 56 yaşında dünyasını dəyişmiş bu dahi futbolçuya bənzəməyə cəhd edir. Əvvəllər əksər oyunlarda o da maykasını üstdən salırdı. (Aydındır ki, "Barselona"ya gəldikdən sonra bu cəhəti ilə digər oyunçulardan seçilə bilməz - M.İ). Yeri gəlmişkən burada bir şəxsi yanaşmamı da oxucularla bölüşmək istəyirəm. Futbol ulduzu kimi qəbul edilsə də, mən heç vaxt Platininin oyunundan zövq almamışam. İndi də Fransa yığmasının heyətində daimi yer almış Qrizmanın oyununun da estetik tərəfini görmürəm. Baxmayaraq ki, Madridin "Atletiko" komandasının əsas oyunçularından biri idi. Heç bilmirəm ona ulduz futbolçu demək olar, ya yox. Kataloniya klubunun onu transfer etməsini də alqışlamadım. Vaxtı ilə gözəl qolları ilə adını dünya futbolu tarixinə həkk etdirmiş İbrahimoviç estetik təsirətmə gücü baxımından mənə görə elə də cəlbedici görünməyib. Həmişə düşünürdüm ki, fiziki göstəriciləri əla olan bu futbolçudan bəlkə də super həndbolçu, voleybolçu, basketbolçu çıxardı. Və tamaşaçılara təsiretmə parametrləri daha qabarıq olmaqla çox cəlbedici təsir bağışlayardı. Tevez, Poqba, Balotelli tipli futbolçuları isə xoşlamamışam. Bu gün "Liverpul"un əsas futbolçusu və qol silahı sayılan Sadio Manenin də oyunundan zövq almıram. Estetik gözəllik bəxş etmək ayrı bir məsələdir. Fikrimcə, hər ulduz futbolçu estetik gözəllik bəxş etmək xoşbəxtliyini qazana bilmir.





Təbii ki, azarkeşlərin, tamaşaçıların tanınmış futbolçulara yanaşmaları, düşüncələri həmişə fərqli olur. Elə incəsənətdə, ədəbiyyatda olduğu kimi... Amma hər bir halda estetik gözəllik yaradan futbolçuları hamı bəyənir.

George Hacı, yaxud "Karpat Maradonası". Rumıniya milli komandasının heyətində üç dəfə dünya çempionatında, üç dəfə isə Avropa çempionatında çıxış edib və ən çox qol vuran oyunçu kimi ölkəsinin tarixinə düşüb. "Qalatasaray"ın fəxri... Estetik harmoniya yaradan unikal futbolçu kimi birdəfəlik qəbul edilib.

Ən çox sevdiyim futbolçulardan biri də Alessandro Del Pyero olub. O, həmişə "Yuventus"un və İtaliya millisinin heyətində cəlbedici oyunları ilə yadda qalıb. Özünəməxsus dəst-xətti olan bu futbolçu "skuadra adzurra"nın tarixində əbədi yer alanlardandır. Serxio Ramos, Pike, Qodin, Kellini, Van Diyk etibarlı müdafiəçilər sayılmaqla bərabər, hava toplarında yaxşı oynayırlar. Onların həlledici anlarda, vacib oyunlarda baş ilə vurduğu qollar həmişə tamaşaçılara ləzzət verir. Beləri futbola fərqli nəfəs verənlərdir. Belə futbolçuların oyunlarında həm də "dekorativ" detallar, cizgilər müşahidə edirsən.

Vaxt var idi ki, İtaliya nəhəngi "Milan"ın bütöv komanda şəklində oyunlarından zövq almışam, o ki qala hələ ayrı-ayrı futbolçulardan. Bəli, indi acınacaqlı günlərini yaşayan "Milan"ın belə bir dövrü olub...



Yaxın keçmişdə, yəni 15-20 il bundan əvvəl Türkiyə çempionatında İstanbul derbiləri olduqca gərgin, maraqlı keçməklə azarkeşlərə, tamaşaçılara hədsiz zövq bəxş edərdi. O vaxtlar İstanbul nəhənglərinin çox güclü heyətləri var idi. Təəssüf ki, indi belə deyildir. Azarkeşlər o illərin futbol zövqünü sanki yadırğayıblar. O dövrlərdə stadionlarda baş verən təlatümlü mənzərələr yəqin ki, çoxdan nostalji hisslərə çevrilib.

Əlbəttə, baxımlı, zövqlü keçən oyunlar azarkeşləri daha çox cəlb edir. Məsələn, hər bir futbolçu üçün "Real" və "Barselona"da oynamaq şərəfli olmaqla bərabər eyni zamanda cəlbedici görünür. Elə oyunlar olur ki, bal kimi ruhumuza süzülür. Elə qollar izləyirik ki, özünə əbədi yaşam statusu qazanır.

Futbolun estetik məqamlarından söz açmışıqsa, "El-Klasiko"ya toxunmamaq mümkün deyildir. Dünyada sayı milyonlarla ölçülən futbol azarkeşlərindən biri kimi mən də "El-Klasiko"nu sevirəm. Dünyanın hər yerində bu oyunu gözləyirlər. Milyonlarla futbol azarkeşi həmin gün üzünü İspaniyaya çevirir. Mən də həmin gün səbirsizliklə axşamın düşməsini gözləyirəm. Gözüm saatda qalır. Bəs, milyonlarla futbol həvəskarı üçün iki əzəmətli, möhtəşəm komandanın qarşılaşması niyə bu qədər maraq kəsb edir?

Ona görə ki, "El-Klasiko"da ulduzlar, sadəcə, futbol oynamırlar, döyüşürlər. Futbolun estetik tərəfi azarkeşləri ovsunlayır. Hər dəfə qeyri-adi futbol matçı izləyirik. Bütün oyunçular cəlbedici görünür. Estetik zövq aldığımız bu futbolçular topla sehirbaz kimi davranırlar. Komandalar cəngavərcəsinə vuruşanda, futbolun estetik gözəlliyi daha da artır. Səhvlər olsa da belə, bu səhvlər komandaya baha başa gəlsə də... Təsadüfi deyil ki, "El-Klasiko"nu dünyanın bütün nüfuzlu kanalları yayımlayır.

İllər keçsə də, yenə də hamı Messi və Ronaldodan danışır. Ona görə də düşünürəm ki, daha bəsdir "super Messi" - "super Ronaldo"ya qarşı! "El-Klasiko"da bu nəhənglərin "döyüşünü" çox izləmişik. Hər ikisi artıq çoxdan futbolun canlı əfsanələridir. İndi nədənsə, mən çox istərdim ki, lap tezliklə (vaxt keçir, sonra gec olar!) Messi ilə Ronaldo nəhayət, bir komandada oynasınlar. Baxmayaraq ki, artıq hər ikisi qızıl yaş dövrünü keçiblər... Və yaxud, Pike ilə Ramos eyni klubda forma geyinsinlər. Əgər bu baş verərsə, azarkeşlərin alacağı zövqü təsəvvür etmək olar. Gözəl futbol mənzərələrini gözünüzün qabağına gətirin. Şübhəsiz çox maraqlı anların şahidi olarıq.

Futbolun estetik tərəfi, lap sadə şəkildə ifadə etsək - heyran qalmaq deməkdir. Yəni, futbol matçı sənə qeyri-adi görünür. Füsunkar oyun, ecazkar hərəkətlər, zövqverici qollar gördəndə hər şeyi, ən böyük dərdimizi belə unudub özümüzü dünyanın ən xoşbəxti sayırıq. Bax, budur futbolun estetik tərəfi. Dahi futbolçuların oyunlarından, vurduqları qollardan azarkeşlər hər dəfə yeni "dozalarda" estetik zövq alırlar. Əsil, fanatik azarkeşlər üçün isə bütün bunlar vaxtı ilə təbii narkotik kimi olub əslində - estetik zövqün fontan kimi axması!... Bəlkə də dünyanı təəccübləndirən dahi futbolçuların sirləri də elə bundadır - estetik zövq bəxş etməkdə!...

# Dünya idmanı





**Üfüq:**

2. Şaxta babanın vətəni. 4. Seneqallı futbolçu. 5. Qış idman növü. 6. Şahmatda termin.10. Fiqurlu konkisürən. 11. Formula 1 bolidlərinin təkər seçimi.12. NBA-nın müntəzəm çempionatında çıxış edən klub. 13. İdman jurnalistlərini birləşdirən qurum. 15. Polşa çempionatının iştirakçısı.



**Şaquli:**

1. İki dəfə Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər Leyk-.... 3. Azərbaycanlı şahmatçı. Xanım....7. Qadın güləşi üzrə yığma komandanın üzvü, Olimpiya Oyunlarının üçqat mükafatçısı. 8. Avstraliyada futbol klubu. "... Yunayted". 13.Azərbaycan çempionatının birinci diviziyonda çıxış edən klub və şəhər.

## Polşalı ulduz əlçatmazdır



Polşa millisinin və "Bavariya"nın futbolçusu Robert Levandovski 2019-cu ilin ən yaxşı bombardiri olub. Polşalı futbolçu bu ilin 1 yanvarından indiyə kimi milli və klubda ümumilikdə 59 oyunda 54 qol vurub. Siyahının ikinci pilləsində Argentina yığmasının və "Barselona"nın hücumçusu Lionel Messi qərarlaşıb. O, təqvim ili ərzində 58 matçda 50 qolla yadda qalıb. Fransa millisinin və PSJ-nin oyunçusu Kilian Mbappe isə 49 görüşdə 44 qolla üçüncü olub.

Qeyd edək ki, Levandovski 2014-cü ildə Dortmund "Borussiya"sından "Bavariya"ya keçib. O, Münhen təmsilçisi ilə 5 dəfə Almaniya çempionu olub.

## Məsut xeyirxah Özil

"Arsenal"ın futbolçusu Məsut Özil bütün dünyada ehtiyac içində olan uşaqların əməliyyat xərclərini öz üzərinə götürəcəyi barədə özünün instaqram hesabında yazıb. O, deyib: "Artıq 219 əməliyyat edilib, amma irəlidə daha çox şey var! Mən və həyat yoldaşım 2019-cu ilin iyununda - toyumuzdan əvvəl elan etdiyimiz kimi bütün dünyada əməliyyata ehtiyacı olan 1000 uşağın xərcələrini üzərimizə götürəcəyik. Bu, hələ başlanğıcdır! Gəlin, qarşıdakı 2020-ci ilə baxaq və ehtiyac içində olan yüzlərlə digər uşaqlara birlikdə kömək edək".

## Məşhurların Milad bayramı sevinci

Dekabrın 25-də bütün dünyanın katolik xristianları Milad bayramını qeyd ediblər. Qəzetimizin bayram buraxılışında dünya idmançılarının Milad bayramını harada və necə qeyd etmələri barədə məlumat verəcəyik.

Portuqaliyalı hücumçu Kriştianu Ronaldo Milad bayramını fərqli yerdə - çimərlikdə qeyd edib. Belə ki, futbolçu sevgilisi Corcina və 4 övladı ilə birgə dəniz sahilindən şəkil paylaşıb. Miladı xatırladan isə şəkildə olan Santa Klaus və "Hər kəsin Milad Bayramı mübarək" yazısı olub.





Karyerasını bitirmiş braziliyalı futbolçu Kaka builki Milad bayramını yeni ailə qurduğu həyat yoldaşı Karolina, qızı Bella və oğlu Luka ilə qarşılayıb. Küknar ağacı qarşısında Santa Klaus papağında şəkil çəkdirən Kaka, "Gəlin ailəmizlə birgə bu bayramı qeyd edək. Şam ağacı bəzəyək, bir-birimizə hədiyyə verək", - deyə qeyd edib.

"Barselona"nın argentinalı futbolçusu Lionel Messinin Milad bayramını necə qeyd etməsi barədə məlumatı isə onun həyat yoldaşı Antonela Rokkuzzo paylaşıb. Messinin xanımı şəxsi instaqram səhifəsində həyat yoldaşı və üç oğlu ilə birgə qırmızı pijama və Santa -Klaus papağında şəkil paylaşıb.

Məşhur tennisçi Mariya Şarapova bayramı özünəməxsus şəkildə qeyd edib. Belə ki, instaqramda Mariyanın italiyalı tennisçi Yanik Sinner ilə birgə Milad mahnısı oxuduğu video yayılıb.

UFC-nin döyüşçüsü Konor Makqreqor Milad bayramını ən səmimi şəkildə, evdə ailəsi ilə birgə qeyd edib. Sosial şəbəkədə həyat yoldaşı, övladları və anası ilə şəkil paylaşan döyüşçü, "Evdə Milad bayramı" deyə şərh yazıb.


**olimpnews.az - sizin saytınız**





Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının kollektivi AFFA-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr şöbəsinin baş mütəxəssisi Törə Əhmədovaya, anası

**Həcərxanım Əhmədovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Törə Əhmədovaya, anası

**Həcərxanım Əhmədovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov və birliyin kollektivi Azər Fətullayevə, qardaşı

**Emin Ağalar oğlu Fətullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19